Əlisa Nicat

Gəncəli müdrik

Bioqrafik roman

Mirzə Şəfi
Kərbəlayi
Sadıq oğlu
Vazeh

QANUN NƏŞRİYYATI

Mirzə Şəfi Vazeh mədəniyyət tariximizin ən əhəmiyyətli simalarından biridir. O, gözəl şair, orijinal mütəfəkkir, yorulmaz maarifçi və bacarıqlı pedaqoq idi. Təkcə universal yaradıcılığı və fəaliyyəti ilə deyil, həm də mübarizə dolu həyatı ilə daim maraq dairəsindədir. "Gəncəli müdrik" böyük Mirzə Şəfi haqqında yazılmış ən dəyərli romanlardan biridir. Eyni zamanda, müəllifin bu səpkili əsərləri arasında layiqli yerlərdən birini tutur. Müəllif burada həm də əsl sənətkar taleyinin modelini yaratmağa çalışıb.

Qədim hind fəlsəfi traktatlarının birində belə bir kəlam var. "Dahilər üçün üç şeydən biri labüddür: Ya gənc yaşında ölmək, ya sonsuz olmaq, ya da ehtiyac içində yaşamaq".

Çox doğru həqiqətdir. Amma heyf ki, qədim mütəfəkkir (Budda) yazılmamış bu qəribə qanunun səbəbini izah etmir. Bəs axı niyə belə olur? Özü də cüzi fərq və tək-tək istisnalar nəzərə alınmasa, dünyanın hər yerində. Axı niyə olmazın ehtiyac və müsibətlər içində ömürlərini başa vuran fransız impressionistlərinin heç kim tərəfindən ən ucuz qiymətə də alınmayan əsərlərinin yüz minlərlə qiymətə satılması üçün mütləq onların ölməsi vacibdir?

Niyə dahilərə qarşı kor olan ataların səhvlərini düzəltmək mütləq oğulların öhdəsinə düşür? Həmin oğulların ki, özləri də öz yaşıdları, müasirləri olan adsız-sansız istedadlara qarşı kor olurlar? Niyə bu qanun bu qədər universal, dəyişməz və əbədidir?

Bütün bunlar, əlbəttə, uzun bir tədqiqatın mövzusudur. Çünki burada səbəb bir deyil, saysız-hesabsızdır.

Kütlə böyüklüyü görmür, görə bilmir. Görə bilənlər isə görmək istəmir, görmək istəmədiyindən guya heç nə yoxdur. Çünki "görünməzlərin" görünməsi onlara sərf eləmir və onlar instinktiv olaraq əllərində olan bütün vasitələrlə çalışırlar ki, həmin görünməyən dahilər beləcə, həmişəlik görünməz olaraq qalsınlar.

Bu belə olur, belə də olub qalacaq.

Mirzə Şəfi də belə "görünməz"lərdən biri olub və onun taleyi otuz il əvvəl məhz buna görə məni məftun elədi.

Mirzə Şəfinin ömrü boyu bacardığı şeir yazmaq və sevmək olub. Öz liliput həmvətənləri və müasirləri içində Qulliver kimi gəzən belə bir şəxsin həyatını təsvir etməkdən maraqlı nə ola bilər?

Avropa və Amerika ədəbiyyatında bioqrafik roman janrı böyük inkişaf yolu keçib. Onun Andre Morua, Lion Feyxtvanger, Henrix Mann, İrvinq Stoun kimi böyük nümayəndələri var.

Bioqrafik romanı tarixi romanla eyniləşdirmək olmaz. Tarixi romandakı imkan və sərbəstliklərə burada meydan azdır. Bioqrafik romanın əsas meydanı qəhrəmanın daxili dünyası, onun ehtiraslarının analizidir. Bunun isə təsviri çox çətin və mürəkkəbdir.

Məni ilk bioqrafik romanımızı yazmağa həvəsləndirən və yazı vaxtı köməyimə gələn iki şey oldu. Biri Bodenştedtin xatirələrinin bir çox parlaq səhifələri, bir də özümlə Mirzə Şəfi arasında duyduğum mənəvi doğmalıq, yaxınlıq və anlaşıqlıq. Mizə Şəfi poeziyasının o döv-

rdə rus dilində N.Qrebnevin yeni misilsiz tərcüməsində nəşri mənimçün göydəndüşmə oldu.

Ancaq bir çox səbəblər üzündən əsəri birbaşa yazıb başa çatdıra bilmədim. 1962-63-cü illərdə başladığım roman yalnız 1988-ci ildə sona çatdı.

Əsərin ilk adı "Nəğməyə dönmüş ömür" idi, sonrakı daha bir natamam çapına isə "Mirzə Şəfi" adını qoydum. Nəhayət belə qərara gəldim ki, onu Bodenştedtin Mirzə Şəfini adlandırdığı kimi, "Gəncəli müdrik" adlandırım.

Həyatda "gözəgörünməz" və ya bədbəxt olmaq üçün sadəcə həssas olmaq və ya hər hansı gözəlliyə heyran olmaq kifayətdir. Qaldı ki, minlərlə, yüz minlərlə adamdan seçilmək kimi qeyri-adi doğulmaq ola...

Hələ iki əsr bundan əvvəl Şopenhauer yazanda ki, "mənəvi yoxsulluq ən gözəl zəmanətdir", aydındır ki, bu cür mənəvi yoxsulluqdan və həyat üçün bu qədər vacib olan kütlük və kobudluqdan məhrum olan mirzə şəfilərə yaşamaq çətin olacaq.

Əgər belə şəxslərin həyatında haçansa, az müddətə də olsa, günəş doğursa, bunu yalnız taleyin qeyri-adi töhfəsi kimi qiymətləndirmək olar.

Keçən əsrin görkəmli filosofu Joli "Böyük insanların psixologiyası" adlı əsərində dahiliyin genetik və psixoloji səbəblərini açıb dahilərin taleyində faciəliliyin səbəblərini onların mühitə, şəraitə uyğunlaşa bilməməyində görür.

Əslində onlar istəsələr də şəraitə uyğunlaşa bilməzlər (Mirzə Şəfinin həyatının sonlarında etmək istədiyi

kimi). Onların ruhi aləmlər üçün yaranmış qüdrətli beyinlərində bunun üçün vacib olan xüsusi mexanizm yoxdur.

Çox təəssüf ki, bizim müasir, az-çox istedadlı şəxsiyyətlərimiz həyatda məharətli olmaqda bir-biriylə yarışıb başa düşmək istəmirlər ki, bununla qazandıqları hədsiz rifah əvəzində nələr itirirlər.

Mahirlik – istedad üçün bədbəxtlikdir.

Və bir şeyi də təkrarən qeyd edim ki, bütün tarixiliyinə və faktoloji xüsusiyyətlərinə baxmayaraq Mirzə Şəfinin həyatını təsvir etməklə əsl sənətkar taleyinin bir növ modelini yaratmağa çalışmışam.

I HİSSƏ

ZÜLEYXA

1

1831-ci ilin payız günlərinin biri idi...

Qəbiristanın dəmir darvazası örtülmüşdü. Əli Quranlı sonuncu adam da darvazanı aralayıb çıxdı. O, Şəmkir yolu üstündəki kiçik təpəlikdən geri baxdı. Orda, qəbiristanda bir cavan dayanmışdı. Başı köksünə əyilmişdi. Onun qarşısında kiçik bir təpə qaralırdı... Torpağı qaralan təzə bir qəbir və bu qəbirdə Gəncənin ədalətli müdrikliyi və onun yeganə dayağı yatırdı.

– Allah sənə lənət eləsin...

Qapıdan çıxan qoca bir daha qəbiristanda dayanan cavana dodaqaltı mızıldandı, yoluna davam edib bir azdan şəhər kənarındakı ağaclar arasında gözdən itdi.

Qəbiristanda dayanmış cavan isə qəhərdən boğula-boğula pıçıldayırdı:

“Rahat yat, Hacı. Sən ömrünü qəhrəman kimi yaşadın. Sənin varlığın əsl möcüzə idi. Sən tək-tənha – bir yığın molla, üləma, şarlatan, cahil, nadanla çarpışdın. Sənin varlığında nə böyük qüdrət var imiş”.

O xırıldayaraq başını solğun səmaya sarı qaldırdı. Dişləri bir-birinə sıxılıb xırçıldadı:

“Ey Allah, ver Hacının qüdrətini mənə. Fikrimə, ağlıma, iradəmə qüvvət ver. Qoy büdrəmədən, yıxılmadan, inildəmədən Hacının mənə əxz elədiyi bu yolu başa vurum”.

O, dərindən köks ötürüb qəbir üstə əyildi.

“Hacı, həyatımdan bir günəş kimi qopub getdin. Məni zülmət içində, vəhşilər içində qoyub getdin. Nə yurdum var, nə qohum-qardaşım, nə də dost-aşnam...”

Cavan düşdüyü vəziyyətin dəhşətini sanki indi dərk etdi. Daş kimi quruyub qaldı. Sonra ağır-ağır qalxıb əbasının düymələrini bağladı.

“Əlvida, müəllimim, sirdaşım, qardaşım, əlvida. Allah rəhmət eləsin. Ruhun şad, məzarın qu tükü kimi yumşaq olsun. Gözlərimə torpaq tökülüncəyə qədər səni unutmayacağam, hacı. Hər cümə axşamı gəlib məzarın üstə sənin çox sevdiyin Seyid Səttarın[1] qəsidələrini oxuyacağam. Sən dünyada mənim sevdiyim yeganə hacıydın... Əlvida, ustadım, əlvida...”

Göz yaşları yavaş-yavaş kipriklərinin ucunda ağırlaşdı, sonra qopub saqqalına yuvarlandı. Cavan adam

[1] Seyid Səttar - bağdadlı dərviş